


# Füzuli irsinin əhatəli biblioqrafik aynası

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının qərarı ilə "Məhəmməd Füzuli: biblioqrafiya" ikicildliyinin I cildi işıq üzü görüb.**

Yeni nəşrin elmi redaktoru və "Ön söz"ün müəllifi AMEA-nın həqiqi üzvü, akademik Teymur Kərimli, tərtibçisi institutun biblioqrafiya şöbəsinin müdiri Qutiyera Cəfərovadır. Kitabı hazırlayan işçi qrupuna isə Əlyazmalar İnstitutunun əməkdaşları Nigar İbrahimova, İsmət Cəfərov, Ramidə Abbasova, Sevinc Muxtarova, Xəyalə Qasımlı və Aytən Musayeva daxildir.

Qeyd edək ki, "Məhəmməd Füzuli" biblioqrafiyası dahi Azərbaycan şairi və mütəfəkkirinin 530 illik yubileyinə həsr edilmiş fundamental biblioqrafik göstəricidir. Topluda görkəmli şairin zəngin irsi haqqında çeşidli materiallar öz əksini tapıb. Biblioqrafik nəşrin I cildinə "Görkəmli şəxsiyyətlər Füzuli haqqında", "Məhəmməd Füzulinin əsərləri" və "Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında" başlıqlı bölmələr daxil edilib. Biblioqrafiya ədəbiyyatşünas alimlər, mütəxəssislər və geniş oxucu auditoriyası üçün nəzərdə tutuub.

*Ə.ƏLİYEV*
*XQ*